# AZƏRBAYCAN RESPUBLİKASI
# ŞABRAN RAYON
# İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
# SƏRƏNCAMI

**№ 40** **29 mart 2019-cu il**

**Rayon gəncləri arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nın 5.7.5-ci yarımbəndinə əsasən gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 6.8-ci bəndini rəhbər tutaraq

**Qərara alıram:**

1. Könüllü fəaliyyətə cəlb olunan gənclərlə sistemli işin təşkili məqsədilə Şabran rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Bağırzadə Fərid Ağaşirin oğlu könüllülərlə iş üzrə koordinator müəyyən edilsin.
2. Könüllülərlə iş üzrə koordinator Bağırzadə Fərid Ağaşirin oğluna tapşırılsın ki:

2.1. Rayon gəncləri arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədilə tədbirlər planı hazırlasın və Şabran rayon İcra Hakimiyyəti başçısına təqdim etsin;

2.2. Bu sahədə fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirsin;

3. Könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq səlahiyyəti rayon İcra Hakimiyyəti başçısının müavini- İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nuşiyev Fikrət Yəhya oğluna həvalə edilsin.

4. Sərəncamın icrası ilə bağlı görülümüş işlər barədə rübdə bir dəfə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məlumat verilsin.

5. Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti başçısının birinci müavini M.Balabəyova tapşırılsın.

**Novruz Novruzov**